

# İlham Əliyev Ermənistanın yalanını bir daha ifşa etdi

## Laçın sərhəd-buraxılış məntəqəsindən 2 mindən çox ermənin keçidi təmin olunub

Ermənilər bu gün də rahatlıqla həmin məntəqədən istifadə edirlər. Bunu Prezident İlham Əliyev nüfuzlu "Euronews" televiziya kanalı vasitəsilə də dünyaya bir daha bəyan edib: "Aprelin 23-dən - sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib".

Prezident İlham Əliyevin bu fikirləri ilə ermənilərin növbəti yalanı bir daha ifşa olunub və Laçın dəhlizində baş verənlər haqqında əsl həqiqətlər hər kəsə bəlli olub. İyunun 15-də Ermənistanın digər hərbi təxribata əl atdığını və sərhədçilərimizdən birini yaraladığını bildirən dövlət başçısı vurğulayıb: "Yol araşdırmaya görə müvəqqəti olaraq bağlı idi. Sonra yol təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi".

Bütün bunlara rəğmən, Ermənistan min cür yalan uydurur, Azərbaycanın bölgədə "humanitar böhran" yaratdığı iddiasını qaldıraraq beynəlxalq ictimaiyyəti manipulyasiya etməyə və ölkəmiz əleyhinə müxtəlif təzyiq vasitələrini işə salmağa çalışır.

→ 5

# İlham Əliyev Ermənistanın yalanını bir daha ifşa etdi

## Laçın sərhəd-buraxılış məntəqəsindən 2 mindən çox erməninin keçidi təmin olunub

Son günlər Ermənistanın Azərbaycana qarşı siyasi şantajı, manipulyasiyası sülh danışıqlarını pozmağa yönəlik addımlardan başqa bir şey deyil. Məğlub ölkə hər vəchlə çalışır ki, sülh müqaviləsinə imza atmasın. Bunun üçün isə hər ay müxtəlif bəhanələr gətirilir, təxribatlar törədilir. Bu dəfə isə yeni oyunları Laçın sərhəd-keçid məntəqəsinin guya bağlanması iddiası oldu. Erməni havadarları olan bəzi beynəlxalq təşkilatlar, həmçinin bütün zamanlarda ermənipərəst mövqeyini gizlətməyən Fransa yenə də Azərbaycanı günahlandırmağa başladı.

Amma bu təşkilatlar, ölkələr hələ də qəbul etmirlər ki, artıq Qarabağ münaqişəsi yoxdur, Azərbaycan öz ərazi bütövlüyünü təmin edib və həmin ərazilərdə yalnız Cənibi Qafqazın lider dövlətinin verdiyi qərarlar keçərlidir. Yəni ağa qara deyən bəzi beynəlxalq təşkilatların, müxtəlif dövlətlərin, hansısa qurumların və ya parlamentlərin necə rəy verməsindən asılı olmayaraq, bu gün üçrəngli bayrağımızı suveren ərazilərimizdə dalğalandırmaq, beynəlxalq hüquq normalarına riayət etməklə istədiyimiz nöqtələrdə sərhəd-keçid məntəqəsi qurmaq və həmin məntəqələrdə təhlükəsizliyimizin təminatına əmin olmaq haqq-hüququmuzdur. Bu baxımdan, Ermənistanın siyasi rəhbərliyinin Laçın yolundakı sərhəd-buraxılış məntəqəsi ilə bağlı əsassız iddiaları, humanitar yüklərin Ağdam-Xankəndi yolu vasitəsilə daşınmasından imtina etmələrinin heç bir əsası yoxdur. Azərbaycanın verdiyi qərarlar dəyişməyəcək.

### Ermənistan min cür yalan uydurur

Ermənistanın Laçın yolundakı sərhəd-buraxılış məntəqəsinin bağlanması ilə bağlı iddiası əsassızdır. Ermənilər bu gün də rahatlıqla həmin məntəqədən istifadə edirlər. Bunu Prezident İlham Əliyev nüfuzlu "Euronews" televiziya kanalı vasitəsilə də dünyaya bir daha bəyan edib: "Aprelin 23-dən - sərhəd-keçid məntəqəsini qurduğumuz vaxtdan etibarən Qarabağın 2 mindən artıq sakini Ermənistana asan şəkildə gedib-gəlib".

Prezident İlham Əliyevin bu fikirləri ilə ermənilərin növbəti yalanı bir daha ifşa olunub və Laçın dəhlizində baş verənlər haqqında əsl həqiqətlər hər kəsə bəlli olub. İyunun 15-də Ermənistanın digər hərbi təxribata əl atdığını və sərhədçilərimizdən birini yaraladığını bildirən dövlət başçısı vurğulayıb: "Yol araşdırmaya görə müvəqqəti olaraq bağlı idi. Sonra yol təkrar açıldı. Qırmızı Xaç Komitəsi dava-dərmanın nəqlini və Ermənistanda müalicəyə ehtiyacı olan xəstələrin təxliyəsini bərpa etdi".

Bütün bunlara rəğmən, Ermənistan min cür yalan uydurur, Azərbaycanın bölgədə "humanitar böhran" yaratdığı iddiasını qaldıraraq beynəlxalq ictimaiyyəti manipulyasiya etməyə və ölkəmiz əleyhinə müxtəlif təzyiq vasitələrini işə salmağa çalışır. Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Qarabağın erməni əhalisinin Laçın dövlət sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidinə şərait yaradılmasına, nəqliyyat vasitələrinin və vətəndaşların məntəqədə yoxlanıldıqdan sonra Ermənistana keçidinin təmin edilməsinə baxmayaraq, onlar şou göstərməyə davam edirlər.

Bu azmış kimi, Laçın yolu vasitəsilə Ermənistana gedən Qırmızı Xaç Komitəsinin yük maşınlarında yoxlama zamanı siqaret və benzin kimi məhsulların qaçaqmalçılıqla keçirilməsi faktlarını danırlar. Lakin Qırmızı Xaç Komitəsi bunu etiraf edərək bildirib ki, onlar buna görə heç bir məsuliyyət daşımırlar. "Lakin bu yük maşınlarının üzərində Qırmızı Xaçın emblemi var idi və sürücülərin uniformaları üzərində də emblemlər var idi. Beləliklə, yol yenidən bu şəkildə bağlanıldı və biz Qırmızı Xaç Komitəsindən buna son qoyulmasını və bizimlə daha konstruktiv işləməsini xahiş etdik", - deyə məsələyə münasibət bildirən dövlət başçısı qeyd edib.

Görünür, Ermənistan Laçın nəzarət-buraxılış məntəqəsinin fəaliyyətindən və yüklərin yoxlanılmasından həm də buna görə narahatdır. Necə deyərlər, müftə sirkə baldan şirin olar. Ömrü boyu başqalarının maliyyə vəsaiti, qrantları və donorluğu hesabına ayaqda durmağa çalışan Ermənistan indi bu səbəbdən çətin duruma düşüb. Həmçinin bu fakt özü də sübut edir ki, bir sıra beynəlxalq təşkilatlar hələ də Ermənistanın cinayət əməlləri törətməsinə şərait yaradır və onun işğalçı siyasətini dəstəkləyirlər. Özünü müstəqil və bitərəf hesab edən Beynəlxalq Qırmızı Xaç Komitəsinin Azərbaycana münasibətdə bu əsas prinsiplərini pozması isə başadüşülən deyil.

Onu da qeyd etmək lazımdır ki, sosial şəbəkələrin Ermənistan seqmentində yayılan məlumatlarda, eləcə də bir sıra erməni siyasətçilərinin açıqlamalarında ermənilərin yaşadığı Qarabağ kəndlərində hazırda vəziyyətin qənaətbəxş olduğu, oralarda humanitar fəlakətin söhbətinin belə getmədiyi qeyd edilir.

Həqiqətən Azərbaycan ötən müddətdə humanitar yardımların daşınması üçün bölgədə heç bir əngəl yaratmayıb, əksinə, dinc birgəyaşayışın təminatı üçün əlindən gələni əsirgəməyib.

### Ermənistan bizi saymamağa davam etsə, özünə ziyan verəcək

Açıq-aydın ortadadır ki, Ermənistan onu himayəsinə götürənlərin qərarları, guya ermənilərin hüquqlarının müdafiəsinə qalxanların əsassız iddia və bəyanatları hesabına müharibədən ötən 3 ilə yaxın müddətdə irəliyə doğru hələ bircə addım da ata bilməyib. Lakin özünə "düşmən" bildiyi Azərbaycan ermənilərə sülh əlini uzadır, onları tərəqqi yoluna çəkir, təhlükəsizliyin harada olduğunu açıq-aydın göstərir.

Sadəcə Ermənistanda ağsaqqal, ziyalı olmalıdır ki, reallığı qəbul edib, həqiqəti görüb, onlara Azərbaycanın Qarabağda yaşayan sadə erməni sakinlərin Laçın yolundan sərbəst keçidini təmin etdiyini və ermənilərin humanitar yardımla təminatı üçün daşımaları daha rahat həyata keçirməyə imkan verən Ağdam-Xankəndi yolundan istifadə təklifini irəli sürdüyünü, ən əsası isə, qalib tərəf olmasına baxmayaraq, məğlub erməniyə inkişaf yolunu göstərdiyini başa salsın. Prezident İlham Əliyevin dediyi kimi, "Həmçinin onlar başa düşməlidirlər ki, bizi saymamağa davam etsələr, bizim mövcud olmadığımız kimi davranmağa davam etsələr və ya "prezidenti", "nazirləri", "parlamentariləri" olan qondarma ölkədə yaşayırlarmış kimi davransalar, bu gün olduqları vəziyyət onların xeyrinə dəyişməyəcək".

***Nəzrin QARDAŞXANOVA,***
***"Azərbaycan"***